Məqsədyönlü idarəetmənin keyfiyyətə təsiri

Habil Bayramlı
Quba rayonu Amsar kənd tam orta məktəbinin direktoru

Amsar kənd tam orta məktəbi 1939-cu ildə fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Dövlət Proqramı (2003-2007-ci illəri)" çərçivəsində Amsar kəndində Heydər Əliyev fondunun hesabına yeni məktəb binası inşa edilmişdir. Hazırda məktəbin 21 sinfində komplektləşən 365 şagirdin təlim-tərbiyəsi ilə 36 müəllim məşğul olur ki, bu da müəllim şagird nisbətinin 1:11 olması deməkdir. Məktəb Azərbaycan dilində 1 növbəli olmaqla 5 günlük iş rejmində fəaliyyət göstərir, ixtisaslı müəllimlərlə tam təmin olunub. Onlardan 90 faizi ali təhsilli, 10 faizi orta ixtisas təhsillidir. Kollektivdə 2 metodist müəllim, 2 "Müəllimlərin Peşəkarlıq Səviyyəsinin Artırılması" və "İntel Gələcək üçün Təhsil" təlim paketləri üzrə təlimçi müəllim çalışır.

Məktəbdə rəhbərlik işinin elmi əsaslarla aparılması, pedaqoji kollektivin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkili, şagirdlərlə ilboyu aparılan sistemli və məqsədyönlü iş məktəb həyatının əlamətdar hadisələrlə zəngin olmasına səbəb olmuşdur. Əsasən gənc və istedadlı müəllimlərdən ibarət olan pedaqoji kollektivimiz daim yeniliyə can atır, beynəlxalq və respublika miqyaslı layihələrdə iştirak edirlər. Məktəbin pedaqoji kollektivi Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı"nı öz əməli fəaliyyətində tətbiq edir. Elə bu səbəbdən məktəb şagirdlərinin Beynəlxalq və Respublika səviyyəli müsabiqələrdə uğurlu nəticələri, bir sıra nailiyyətləri olmuşdur. Şagird Mədətov Sərxan 2006-cı ildə Yunanıstanda, 2008-ci ildə İtaliyada yeniyetmələr arasında keçirilən kinq-boks idman növü üzrə Avropa birinciliyini qazanmış və qızıl medala layiq görülmüşdür. Qədirova Mədinənin 2008-ci ildə İsveçrədə keçirilən "Uşaqların rəsm əsərləri" müsabiqəsində çəkdiyi rəsm əsəri qızıl medala layiq görülmüşdür. Milli irsimizin, tarixi dəyərlərimizin şagirdlərə dərindən öyrədilməsinin nəticəsidir ki, məktəbin şagirdi Nurulu Elçin 2010-cu ildə ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə Bakı şəhərində keçirilən inşa müsabiqəsinin Respublika turunda fəal iştirakına görə Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdir. 2009/2010-cu tədris ili üzrə rayon məktəbliləri arasında keçirilən "Xəmsə" intellektual bilik yarışmasında şagirdlərimizdən ibarət istedadlar komandası rayon məktəbliləri arasında birinci yerə layiq görülərək Gənclər və İdman İdarəsinin kubokuna və diplomuna layiq görülüblər. Bundan başqa, şagirdlərin rayonda keçirilən müsabiqələrdə, fənn olimpiadalarında nümayiş etdirdikləri bilik və bacarıqlar sevindirici olmuşdur.

Məktəbin fəaliyyətində diqqəti cəlb edən mühüm cəhətlərdən biri də məzunların ali təhsil müəssisələri və orta ixtisas təhsili müəsissələrinə qəbul zamanı yüksək bilik nümayiş etdirmələridir. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi məlumatına əsasən son üç ildə ali təhsil müəssisələrinə qəbul zamanı məzunlarımızın topladığı ballar ildən-ilə artır. Ali təhsil müəssisələrinə qəbulun nəticələrinə görə böyük uğur qazanan siniflərin məzunları və fənn müəllimləri bərəsində rayonun "Şəfəq və Tərəqqi" qəzətində dərc olunmuş geniş yazılar məktəbin müəllimləri və digər məzunlar üçün nümunədir. Bu nəticələrin alınmasına səbəb məktəbdə şagirdlərlə dərs prosesinin düzgün təşkili, müəllimlərin dərsə hazırlıqlı gəlmələri, şagirdlərlə aparılan gərgin işin nəticəsidir. Məktəb rəhbərliyinin fəaliyyətində buraxılış imtahanlarına hazırlıq ilboyu diqqət mərkəzində saxlanılır, hər ayın sonu daxili yoxlama sınaq imtahanları təşkil edilir, vaxtaşırı nəticələr müzakirə olunur, geriliyin aradan qaldırılması məqsədilə müəllim və şagirdlərə zəruri tapşırıqlar verilir. Bu təhsil ocağında təlim nəticələrinin yüksəldilməsində məktəbdaxili nəzarətin düzgün aparılması, müəllimlərin dərslərinin dinlənilməsi, tədris prosesinə rəhbərlik, müəllimlərə metodik köməkliyin göstərilməsi böyük rol oynayır. Fənn müəllimləri verilən göstəriş və tövsiyələri nəzərə almaqla, il ərzində şagirdlərə dərin və əsaslı biliklər aşılamağa çalışmışlar. Bütün bunların nəticəsidir ki, Təhsil Nazirliyinin mərkəzləşdirilmiş qaydada keçirdiyi sınaq və buraxılış imtahanlarında məktəbdə təhsil alan şagirdlərinin nəticələri yüksək olmuşdur. Son illər ərzində Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin buraxılış sinifləri üzrə keçirilən imtahanlarda, illər üzrə keyfiyyət və müvəffəqiyyət göstəriciləri artmaqdadır. Belə ki, 2010-cu ildə Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilən buraxılış imtahanlarında məktəbin müvəffəqiyyət faizi XI siniflərdə 92,4 %, IX siniflərdə 95 %, 2010/2011-ci tədris ilində XI siniflərdə 100 %, IX siniflərdə 98 % olmuşdur. Şagirdlərin həmin imtahanlarda yüksək nəticələr əldə etməsinin başlıca səbəbi fənlərin tədrisi prosesinə müəllimlərin məsuliyyətlərinin artırılması olmuşdur. Məktəbdə bütün siniflər üzrə fənn kurikulumlarının tətbiqi müəllimlərin fəaliyyət istiqamətinin əsasını təşkil edir. Bu məqsədlə ayda bir dəfə şagirdlərin biliyinin çoxvariantlı test qaydası ilə yoxlanılması aparılır, hər bir şagirdin fənlər üzrə kiçik summativ qiymətlərinin müəyyənləşdirilməsi təşkil edilir. Verilmiş tapşırıqlar üzrə test yoxlamalarında zəif nəticə göstərən şagirdlərlə əlavə məşğələlər təşkil edilir, həmin şagirdlərin biliyinin dövlət proqramının tələbləri səviyyəsinə yüksəldilməsi üçün il ərzində müəyyən tədbirlər görülərək icra olunur.

Bu təhsil ocağının işində nəzərəçarpan cəhətlərdən ən başlıcası təhsil sahəsində təcrübəsi olan mütəxəssislərin məktəbə dəvət olunması, məzunlarla "Uğurlu təlim peşələrinin seçimi, seçimlər zamanı yaranan çətinliklər və onların aradan qaldırılma yolları" mövzusunda söhbətlərin keçirilməsi, onların valideynlərinin maarifləndirilməsidir. Eyni zamanda pedaqoji kollektivin hər bir üzvü tərəfindən şagirdlərdə təlimə məsuliyyət hissinin aşılanması mühüm əhəmiyyət kəsb edir. Pedaqoji kollektiv təlimin həyati əhəmiyyətini şagirdlərə ətraflı surətdə şərh və izah etməkdən, məktəbliyə təlim zamanı borcunu və vəzifəsini yerinə yetirməyə sövq edən tələblər verməkdən, təlimdə

pedaqoji situasiyalar yaratmaqdan, səylə oxuyan şagirdləri rəğbətləndirməkdən, bu və ya digər inkişafetdirici yanaşmalardan istifadə etməkdən kənara çəkinmir, səmərəliliyin artırılmasına xüsusi diqqət yetirilir. Ulu öndərimiz Heydər Əliyevin "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır" fikrini daim diqqət mərkəzində saxlayan pedaqoji kollektiv bu fikri həmişə ən vacib məsələ kimi qiymətləndirmiş və tələblərə əməl etməyə çalışmışlar.

Bu gün məktəblərdə müasir inkişafı şərtləndirən amillərdən biri də tərbiyəvi iş sisteminin yenidən qurulması nəzərətin gücləndirilməsidir. Bu baxımdan məktəbdə təlim-tərbiyə işinin səmərəli və keyfiyyətli təşkili təlim göstəricilərinin uğurlu olması məktəb rəhbərliyinin fəaliyyətindən çox asılıdır. Məktəbdə tərbiyə sahəsində aparılan iş ötən illərin təcrübəsinə söykənərək daim yenilənir. Demokratik, hüquqi, dünyəvi dövlət olan Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində şagirdin şəxsiyyət kimi formalaşması, təhsil-tərbiyə məsələlərinin müasir standartlar səviyyəsində qurulması sahəsində atılan ən böyük addımlardan biri məktəblərdə yaradılan uşaq parlamentidir. Bu təhsil ocağında yaradılmış uşaq parlamenti məktəbin ictimai həyatının ayrılmaz tərkib hissəsi olub. Şagirdlərin şəxsiyyət kimi formalaşmasında eyni zamanda savadlılığın artırılmasına xidmət göstərən təlim mühitinin yaradılmasında, pedaqoji kollektivin fəaliyyətinin düzgün istiqamətləndirilməsində məktəb rəhbərinin üzərinə böyük məsuliyyət düşür. Odur ki, pedaqoji kollektivin rəhbərliyi tərəfindən kadrların ixtisasının artırılmasına, onların təşəbbüskarlığına, bilik və bacarıqlarının XXI əsrin tələblərinə uyğun formalaşmasına xüsusi diqqət yetirilir. Öz işinə məsuliyyətlə yanaşan, yenili-

yi qəbul edib dərslərində, sinifdaxili fəaliyyətində tətbiq edən müəllimlərin rəğbətləndirilməsi fəaliyyətimizin tərkib hissəsidir. Təlim prosesinin təkmilləşdirilməsinə, daha mütərrəqi, səmərəli metodların yaradıcı tətbiq edilməsinə, pedaqoji axtarış və tədqiqatlara xüsusi fikir veririk. Kollektivin işində iki xarekterik cəhəti – bir tərəfdən innovasiyaların tətbiqinin, novatorluğun, digər tərəfdən isə sınaqdan çıxmış pedaqoji təcrübələrin, elmi nailiyyətlərin məktəb praktikasına yaradıcı surətdə tətbiq edilməsini qeyd etmək lazımdır. Məqsədyönlü rəhbərliyin nəticəsidir ki, pedaqoji kollektivin işinə yaradıcı yanaşma öyrədənlərdə öyrətmək, öyrənənlərdə öyrənmək həvəsini yüksəldir.

Sevindirici haldır ki, məktəbin illik və cari, həmçinin pedaqoji şurasının iş planlarında kollegiallıq və aktuallığa diqqət yetirilir. Pedaqoji şura yığıncaqlarında müzakirə olunan məsələlər geniş təhlilə əsaslanır, qərarların icrasına nəzarət olunur, tədrislə yanaşı, tərbiyə məsələlərinə, qabaqcıl iş təcrübəsinin öyrənilib yayılması və təbliğinə xüsusi yer verilir. Onu da qeyd etmək lazımdır ki, pedaqoji şura və valideyn iclaslarında təhlil və araşdırmalar, statistik göstəricilər texnologiyanın imkanlarına əsaslanaraq həyata keçirilir. Bu zaman kompyuter proqramlarında hazırlanmış diaqram və statistik göstəricələr yığıncağın iştirakçılarına verilən məlumatların məzmunlu və anlaşıqlı olmasına səbəb olur.

Qısa müddət ərzində uğurlu nəticələrin qazanılmasının əsas səbəblərindən biri məktəbin müəllim və şagirdlərinin pilot layihələrdə, habelə digər inkişafyönümlü innovativ təhsil proqramlarında iştirakıdır. Bunlara "Valideynlərin maarifləndirilməsi", "Beşyaşlıların məktəbə hazırlığı", "İnternet texnologiyalarından tədris prosesində düzgün istifadə" və s. misal göstərmək olar. Belə ki, valideyn-

lərə müasir dərsə verilən tələblər, inkişafetdirici təlim metodları ilə tanışlıq, onların vəzifə və borcları valideynlərin maarifləndirilməsi təlimi vasitəsilə aşılanır. Hazırkı dövrdə şagirdlərin məktəbə hazırlıqlı gəlmələri, onlarda ilkin bilik-lərin formalaşması mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə məktəbdə təşkil olunmuş beşyaşlıların məktəbə hazırlığı təlimi yuxarı siniflərdə öz müsbət təsirini göstərməkdədir.

XXI əsr informasiya bazasının genişləndiyi bir dövrə təsadüf edir. Ölkənin təhsil sistemində uğurla həyata keçirilən təhsil sisteminin informasiyalaşdırılması qabaqcıl təhsil məqsədlərini dəstəkləyən ölkələrin təhsil sisteminə inteqrasiya etməkdən xəbər verir. Ümumitəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları təminatı Proqramının reallaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. Bu və ya digər inkişafyönümlü dövlət proqramlarından yararlanaraq bu təhsil ocağında da zəruri tədbirlər həyata keçirilməkdədir. Belə ki, məktəb sürətli internet şəbəkəsinə qoşulmuş 2 kompyuter otağında 20 kompyuter gün ərzində müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Məktəbin pedaqoji kollektivi tərəfindən İKT-dən tədris prosesində istifadəyə geniş yer ayrılır onlar bu sahədə bilik və bacarıqlarını artırmaq məqsədilə müxtəlif treninq və seminarlarda iştirak edirlər. Məhz bu işlərin nəticəsidir ki, şagirdlər və müəllimlər tərəfindən hazırlanmış məktəb saytı, məktəb bloqu və məktəbin elektron poçtu (mekteb.ucoz.ru) xarici ölkələrin məktəbləri ilə dostluq əlaqələri qurmağa, təcrübə mübadiləsi aparmağa imkan verir. Pedaqoji kollektiv ölkə başçısının 2008-ci il 10 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş "Təhsil Sisteminin İnformasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012)" çərçivəsində həyata keçirilən kurslarda ("İNTEL" "Gələcək üçün Təhsil", "Müəllimlərin Peşəkarlıq Səviyyəsinin Təkmilləşdirilməsi", "Elektron Təhsil Resursları") iştirakçı olmuş, öyrəndikləri bilik və bacarıqlarını "Xalq Kompyuter layihəsi" çərçivəsində əldə etdikləri kompyuterlərdən istifadə edərək öz dərslərində tətbiq edirlər. İKT-dən səmərəli istifadə təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsində və dinamik inkişafa nəzarət etməkdə idarəedici imkanları mükəmməlləşdirir. Qeyd etmək vacibdir ki, bu təhsil ocağının idarə olunmasına da informasiya texnologiyalarının böyük rolu vardır. Belə ki, məktəbin tədris cədvəlləri, virtual tədris məkanlarının idarə edilməsi məktəb rəhbərliyi tərəfindən asanlıqla həyata keçirilir. Təhsil ocağında təlim nəticələrinin idarə edilməsi və bu nəticələrin vaxtında valideynlərə çatdırılması mühüm əhəmiyyət kəsb edir. İKT-dən istifadə təhsilalanların fənn kurikulumlarına müvafiq olaraq tədris proqramını mənimsəmələrinin obyektiv müəyyənləşdirilməsinə, tədris planından əlavə fəaliyyətlər aprmağa əlverişli mühit yaradır.

Son zamanlar məktəbin müsair texnologiyaların tətbiqi üzrə layihələrdə, o cümlədən pilot layihələrdə, habelə digər inkişafyönümlü innovativ təhsil proqramlarında, Respublika səviyyəli müsabiqələrdə iştirakı sevindirici olmuşdur. 2010/2011-ci tədris ili üzrə Təhsil Nazirliyi tərəfindən keçirilən "Elektron Təhsil" müsabiqəsinə məktəbin müəllim və şagirdləri uğurla qatılmış, hazırladıqları elektron tədris resurslarını musabiqe.edu.az saytında müxtəlif nominasiyalar üzrə yerləşdirmişlər. Sevindirici haldır ki, 18 iyun 2010-cu il tarixdə keçirilən müsabiqə qaliblərinin təqdimetmə mərasimində məktəbin direktoru Habil Bayramlı "İKT-dən istifadə etməklə qurulan tədris prosesinin ən yaxşı modeli" nominasiyası

üzrə I yerə layiq görülmüş və Təhsil Nazirliyinin diplomu ilə təltif olunmuşdur. Həmin müsabiqədə Amsar kənd tam orta məktəbi "Ən fəal region məktəbi nominasiyası" üzrə qalib olmuşdur. Hazırda məktəbin istedadlı şagirdlərindən ibarət komandası "Gənc informatiklər müsabiqəsi"nə uğurla qatılıblar.

Təlimdə müasir yanaşmaları özündə əks etdirən yeni fənn kurikulumlarının tətbiqi və onlarla işləmə bacarığının formalaşdırılması sahəsində görülən işlər I, II, III siniflərdə müsbət nəticələr verməkdədir. Yeni fənn kurikulumlarının tətbiqi ilə bağlı məktəbin təşkil olunmuş kurslarını iştirakçıları olmuş ibtidai sinif müəllimləri bu proqramın məzmununu və mahiyyətini öyrənərək sinifdaxili fəaliyyətlərində səmərəli tətbiq edirlər. Kurikulumun tətbiqi ilə bağlı məktəb valideynləri və ictimayyəti maarifləndirərək onları açıq dərslərə dəvət edir, geniş təbliğat işləri aparır. Məktəbin ibtidai siniflərində dərs deyən müəllimlər arasında könüllülük prinsipinə əsaslanaraq vaxtaşırı fənn kurikulumlarının işinin təkmilləşdirilməsinə dair diskussiyalar, müzakirələr və treninqlər təşkil olunur.

Ümummilli liderimiz Heydər Əliyevin irsinin öyrənilməsi, onun ideyalarının təbliği məktəbdə geniş vüsət alır. Milli irsimizi, tarixi dəyərlərimizi gənc nəslə dərindən mənimsətmək məqsədilə hər il məktəbin yuxarı sinif şagirdləri arasında ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş inşa, rəsm müsabiqələri təşkil olunur, idman oyunları keçirilir. Bundan başqa, ulu öndər Heydər Əliyevin doğum günündə məktəbin təşkil etdiyi gül kompazisiyaları valideynlər və ictimaiyyət tərəfindən alqışla qarşılanır.

Rayonumuzun tarixi keçmişini, zəngin təbiətini öyrənmək və məktəbliləri vətənpərvərlik ruhunda tərbiyə etmək pedaqoji kollektivin qarşısında duran aktual məsələlərdəndir. Bu məqsədlə rayonun qədim abidələrinə-Köhnə hamama, Abasqulu Ağa Bakıxanovun ev muzeyinə, Quba məzarlığına, rayonun tarix diyarşünaslıq muzeyinə, eləcə də ölkəmizin tarixi və görməli yerlərinə vaxtaşırı ekskursiyalar təşkil olunur. (1 aprel 2011-ci il tarixdən etibarən məktəbin gənc müəllim və şagirdlərindən ibarət "Gənc tədqiqatçılar" komandası Quba qəzasında baş vermiş hadisələrlə, tarixi faktlarla bağlı məlumatları toplayıb rus, ingilis və Azərbaycan dillərində internet vasitəsilə dünyanın açıq ensiklopediyası sayılan vikipediyada yerləşdirilər.

Pedaqoji kollektivimiz tədris prosesində ən müasir təlim metodları və texnologiyarının tətbiqinə çalışır, sinifdənxaric və məktəbdənkənar tədbirlər zamanı şagirdlərin potensial imkanlarının hərtərəfli inkişaf etdirilməsinə diqqət yetirirlər. Məktəbdə təhsil alan şagirdlərin elmə, təhsilə marağın artırılması məqsədilə ədəbi-bədii gecələr, viktorinalar, səhnəciklər, diskussiyalar, bilik yarışmaları, müsabiqələr və kitab müzakirələri keçirilir. Bu təhsil ocağında aparılan məqsədyönlü işin nəticəsidir ki, məktəbin 3 nəfər şagirdi rayonda keçirilən "Novruz 2011" rəsm və inşa müsabiqələrinin qalibi olaraq, Rayon Təhsil Şöbəsinin diplomu ilə təltif olunublar.

Məktəbdə şagirdlərin ekoloji tərbiyəsinin təkmilləşdirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Müəllim və şagirdlər tərəfindən bu sahədə əməli işlər görülür. 2010-cu ilin "Ekologiya ili" elan edilməsi ilə əlaqədar ötən il ərzində şagird və müəllimlərlə birgə yaşıllaşdırma kampaniyası həyata keçirilmiş, məktəbin həyətyanı sahəsində 500-ə yaxın meyvə ağacları əkilmişdir.

Tədris müəssisəsinin fəaliyyətində nəzərəçarpan ən mühüm cəhətlərdən biri də şagirdlərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına xüsusi diqqət yetirilməsidir. Aparılan məqsədyönlü işin nəticəsidir ki, məktəbin "Şahinlər" komandası hər il rayonda keçirilən "Şahin" hərbi idman oyununda həvəsləndirici yerə layiq görülür.

Məktəbdə şagirdlərin asudə vaxtının düzgün təşkilinə də geniş yer verilir. Bu baxımdan təşkil olunmuş musiqi, gənc informatiklər, rəqs, xor, idman kimi dərnəklərin xüsusi rolu vardır. Zəngin kitabxanamız daim uşaqların xidmətindədir. Kütləvi tədbirlərin keçirilməsində, ümummilli liderimiz Heydər Əliyevin irsinin öyrədilməsində, yeni nəşrlərlə şagirdlərin tanış edilməsində, dərsliklərin səliqəli saxlanılmasında, kitabxana fondunun zənginləşdirilib qorunmasında, sözsüz ki, məktəb kitabxanasının rolu böyükdür. Hər il yeni dərs ilinin başlanğıcınadək yeni dərsliklər gətirilir və şagirdlərin tam istifadəsinə verilir.

Məktəbin bütün sahələrində onun həmkarlar təşkilatının rolu əvəzedilməzdir. Elə bir tədbir yoxdur ki, onun təşkilində bu təşkilat fəallıq göstərməsin. Tədris ili ərzində məktəbdə keçirilməsinə ehtiyac duyulan tədbirlərin təşkil olunmasında həmkarlar təşkilatı fəallıq göstərərək pedaqoji kollektivi öz ətrafına toplayır.

Amsar kənd tam orta məktəbi 2010/2011-ci dərs ilində Azərbaycan Respublikası Təhsil Nazirliyinin keçirdiyi "İlin ən yaxşı ümumi təhsil müəsissəsi" müsabiqəsində iştirak etmişdir. 3 mərhələdən ibarət bu müsabiqədə məktəbimizin hər bir mərhələ üzrə göstəriciləri qənaətbəxş olduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 iyun 2011-ci il tarixli Sərəncamı ilə "Ən yaxşı ümumi təhsil müəsissəsi" müsabiqəsinin qalibi olmuşdur. Kollektivimiz bunu əməyimizə verilən böyük qiymət kimi dəyərləndirir, göstərilən etimadın məsuliyyətini dərk edir. Bu bizə əsas verir ki, gələcək fəaliyyətimizdə daha diqqətli olaq, təhsil sahəsində baş verən mütərəqqi metod və vasitələri təlim prosesinə uğurla tətbiq edək.

Г.Байрамлы

Влияние целесобразного управления на качество

Резюме

В статье говорится об успехах ,достигнутых за последние годы средней школы села Амсар района Кубы. Отмечается, что создание учебной атмосферы, служащей повышению грамотности, правильного направления деятельности педагогического коллектива, оптимального использования ИКТ и современных методов обучения – все это зависит от компетентности управления школьного руководства.

H.Bayramli

The affect of managing correctly to quality

Summary

In this article it is spoken about the achievements of secondary school in Amsar village in Guba region in the recent years. It is noted that creating a good training environment for enhancing literacy, correctly directing of pedagogical collective, using information communication technology (ICT) and new teaching methods depend on the school director's managing competency.